*https://doi.org/10.30546/114578.2025.10.4027*

# MAHİRƏ NAĞIQIZININ POEZİYASINDA ANA SEVGİSİ

**Həcər Hüseynova**
*filologiya elmləri doktoru, professor*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://ORCID.org/0000-0002-3223-427X*
*hacerhuseynova@mail.ru*

**Xülasə**

Mahirə Nağıqızı dilçilik üzrə elmlər doktoru, professor olsa da, XXI əsr Azərbaycan ədəbiyyatının sevilən, oxunan şairi kimi də tanınmışdır. O, poetik dili, xüsusilə də qadın şair üslubunu öz yaradıcılığında uğurla təcəssüm etdirir. Onun poetik fikri təkcə emosional deyil, eyni zamanda fəlsəfi məna daşıyır.

Mahirə Nağıqızı yaradıcılığı ilə Azərbaycan qadınının milli düşüncə tərzini, mənəvi möhkəmliyini və analıq duyğusunu poeziya müstəvisində uğurla təqdim edir.

Məqalədə Mahirə Nağıqızının poetik yaradıcılığında “ana” obrazının bədii-fəlsəfi yükü və məzmunu araşdırılır. Ana sevgisi onun poeziyasında yalnız bioloji anlamla yox, həm də vətən, torpaq, xalq və dil anlayışları ilə vəhdətdə təqdim olunur. Şairin şeirlərində ana obrazı mərhəmət, şəfqət, fədakarlıq və mənəvi güc simvolu kimi çıxış edir. Mahirə Nağıqızı xalq poeziyası üslubuna yaxın bir dildə bu duyğuları ifadə edir və bu da onun poeziyasına həm səmimiyyət, həm də dərinlik qatır.

**Açar sözlər:** ana sevgisi, poeziya, obraz, vətən.

# MOTHER LOVE IN MAHIRA NAGHIGIZI’S POETRY

**Hajar Huseynova**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

Although Mahira Naghigizi is a Doctor of Philology and a professor, she is also recognized as a beloved and widely read poet of 21st-century Azerbaijani literature. She successfully embodies poetic language in her work, especially the style of female poets. Her poetic thought carries not only emotional depth but also philosophical meaning.

Through her work, Mahira Naghigizi successfully presents the national mindset, spiritual resilience, and maternal feelings of Azerbaijani women within the realm of poetry.

The article explores the artistic and philosophical significance and content of the “mother” image in Mahira Naghigizi’s poetic ccreativity. Mother’s love in her poetry is presented not only in its biological sense but also in unity with the concepts of homeland, land, people, and language. In the poet’s verses, the image of the mother serves as a symbol of mercy, compassion, self-sacrifice, and spiritual strength. Mahira Naghigizi expresses these emotions in a language close to the style of folk poetry, which adds both sincerity and depth to her poetry.

**Key words**: motherly love, poetry, image, homeland.

## МАТЕРИНСКАЯ ЛЮБОВЬ В ПОЭЗИИ МАХИРЫ НАГИКЫЗЫ

**Хаджар Гусейнова**

*Азербайджанский государственный педагогический университет*

**Резюме**

Хотя Махира Нагикызы является доктором наук и профессором языкознания, она также известна как выдающийся, любимый и читаемый поэт азербайджанской литературы XXI века. Она успешно воплощает в своём творчестве поэтический язык, особенно стиль поэтесс. Её поэтическая мысль не только эмоциональна, но и имеет философский смысл.

В своём творчестве Махира Нагикызы успешно представляет национальный образ мышления, духовную силу и материнство азербайджанской женщины в поэтическом поле.

В статье исследуется поэтическое отражение образа матери в творчестве Махиры Нагикызы. Любовь к матери представлена не только как биологическая привязанность, но и как символ Родины, земли, народа и языка. В её стихах мать изображается как источник милосердия, духовной силы и самопожертвования. Простота и искренность языка приближают её поэзию к народной традиции. В работе анализируются функции этого образа в поэтическом контексте на основе текстов.

**Ключевые слова:** любовь к матери, поэзия, образ, родина

**Giriş/İntroduction**

XXI yüzilliyin tanınan, sevilən şairi, publisisti, alimi Mahirə Nağıqızının yaradıcılığında dilçilik və ədəbiyyatın uğurlu sintezini görmək mümkündür. Dərin fəlsəfi, emosional şeirləri mövzu rəngarəngliyi ilə diqqəti cəlb edir. Ana sevgisi, vətən həsrəti, qəhrəmanlıq, şəhidlik, qadının taleyi və digər mövzular onun yaradıcılığının ana xəttini təşkil edir. Ana mövzusu şair-ananın ən duyğulu, ən həssas mövzusudur. Ana mövzusuna həsr etdiyi əsərlərdə ana həm onu dünyaya gətirən, zərif, eyni zamanda güclü, ailənin ağırlığını zərif çiyinlərində daşıyan, özü də kamilləşən, övladlarının təhsilini, tərbiyəsini axsatmayan, sinədəftər ədəbiyyatçı olan NAZLI anadırsa, həm də ANA VƏTƏNdir, ANA DİLİdir.

“Anamın kitabı” şeirlər və hekayələrin toplandığı kitabda ana haqqında şeirləri oxuduqca Nazlı ananın həyat hekayəsi gözümüzün önündə canlanır. Buna görə də Mahirə xanımın ən duyğulu şeirləri məhz Anaya həsr etdiyi şeirlərdir demək mümkündür. Bu əsərlər oxucuya emosional təsir edir, zərif, incə duyğular oyadır.

Azərbaycan ədəbiyyatında ana obrazı hər zaman müqəddəs bir rəmz kimi təqdim olunmuşdur. Bu obraz həm milli-mənəvi dəyərlər sisteminin əsas dayağı, həm də mənəvi zənginliyin təcəssümü kimi çıxış edir. Müasir dövr ədəbiyyatında Mahirə Nağıqızının şeirləri ana obrazının poetik tərənnümü baxımından xüsusi yer tutur. Onun lirikasında ana – həm gerçək insan, həm də simvolik dəyər daşıyan, sevginin, fədakarlığın, təmənnasızlığın rəmzidir.

Mahirə Nağıqızı ana mövzusunu işləyərkən duyğularını yalnız şəxsi hisslər çərçivəsində deyil, ictimai və bəşəri kontekstdə təqdim edir. Onun şeirlərində ana səssiz qəhrəman, səbrin və mərhəmətin rəmzi, vətənin özü qədər müqəddəs bir varlıq kimi təsvir olunur.

*Bir nazlanıb oynamadı telləri.*
*Od üstündə aldı, verdi illəri.*
*Gözümüzün qabağında əlləri,*
*Qabar tutdu, əli yaman qocaldı* [Nağıqızı, 2025:9].

M.Nağıqızının şeirlərində ana obrazı ailəsinin, övladlarının “təhlükəsizliyinin təminatçısı” kimi təqdim edilir. Şairin poetik dili sadə, lakin təsirli, ana sevgisi isə dərin və təmənnasızdır.

*Ay ana, bilirəm bu kainatda,*
*Qiymətli nə varsa, oyun-oyuncaq.*
*Hər şeyin qiyməti olur həyatda,*
*Sənin qiymətini tapmadım ancaq* [Nağıqızı, 2021:29].

Mahirə Nağıqızının şeirlərində ana sevgisi nostalji və itki qorxusu ilə də çulğaşır. O yalnız sağ olan anaya deyil, ana xatirəsinə, ana dualarına və ana nəfəsinin yoxluğuna da poetik reaksiya verir, lirizm və duyğusallıq bu şeirlərin ruhuna hopur.

*Yüz dəfə könlümü aparıb xəyal,*
*Gördüm ki, orada dayanıbdı lal,*
*Nəydi sükutunda gördüyüm sual,*
*Canımı sadağa verdiyim anam* [Hüseynova, 2013].

Bu misralarda artıq fiziki yoxluq  mənəvi varlıqla əvəz olunmuşdur. Ana yalnız həyat verən deyil, həm də həyatın özüdür.

M.Nağıqızı bəzi şeirlərində ana ilə vətən arasında metaforik bağ yaradır. O göstərir ki, ana itkisi ilə vətən ağrısı bir nöqtədə kəsişir: ikisi də müqəddəsdir, hər ikisi üçün mübarizə aparmaq lazımdır. “Sənin dizin altı, yurdumun torpağı”…  misrasında bu paralellik aydın görünür.

Mahirə Nağıqızının şeirlərində ana sevgisi müqəddəs duyğuların poetik ifadəsi, sadəliyin içində dərinliyin nümunəsi kimi çıxış edir. Onun şeirləri göstərir ki, ana təkcə bioloji varlıq deyil, həm də mədəni-mənəvi yaddaşın daşıyıcısıdır. Bu baxımdan, Mahirə Nağıqızının lirikasında ana sevgisi Azərbaycan ədəbiyyatının ənənəvi ana obrazını müasir baxışla yenidən təsdiqləyir.

**Ana məfhumu və onun poetik funksiyası.** Mahirə Nağıqızı poeziyasının “Ana” mövzusu onun yaradıcılığında əsas leytmotivlərdən biridir. Şairin bütün şeir kitablarında anaya həsr olunmuş şeirlər və ya ananın simvolik obrazı vardır [Nağıqızı, 2025:78].  Bu “ana” obrazı yalnız fiziki ana ilə məhdudlaşmır. “Ana vətən”, “ana dili”, “ana südü” kimi ifadələrlə “ana” simvolu genişlənir, milli-mənəvi, mənəvi-emosional dəyər kimi çıxış edir .  Şair ananı həm sevgi, həm də qayğı obrazı olaraq təqdim edir; ananın çəkdiyi əziyyət, fədakarlıq, ruhsal yük şeirin məzmununa daxil olur. “Anam sinəsində ocaq daşıdı” ifadəsi bu fədakarlığın poetik təsviridir.

Bu cür poetik yanaşma oxucuda həm şəxsi, həm də ümumbəşərilik hissi oyadır – ana obrazı universal, hamını birləşdirən dəyər kimi təqdim olunur.

**Mahirə Nağıqızının bayatılarında ana mövzusu.** Bayatı janrı Mahirə Nağıqızında xüsusi yer tutur. Onun bayatılarında çox vaxt dərin mənalar qısa, lakonik ifadələrlə təqdim edilir [Nağıqızı, 2021:72].

*Bu bulaq çağlarmı, qalar,*
*Axmasa, ağlarmı qalar?*
*Ana dağları görmədim,*

*Bu dərdə dağlarmı qalar?*
*Çiçəklər yaza borcludu,*
*Vüsaldı-naza borcludu,*
*Anam Nazlı düz deyir:*
*Qanan qanmaza borcludu!*

Daha sadə sözlər vasitəsilə dərin fikirləri, dünya, həyat haqqında düşüncələrini oxucuya çatdırmışdır. Xalq ruhunun duyulduğu, mənası dərin, strukturu yığcam olan bayatılarda M.Nağıqızının səmimi duyğuları, xalq üçün narahatlıq keçirən bir ana qəlbinin narahatlığı bədii, poetik dillə təsvir olunur [Nağıqızı, 2021:103].

Bayatı kimi qısa janrlarda lirik leytmotivlərin bu qədər səmərəli işlənməsi şairin dil və ifadə ustalığından xəbər verir. Burada mürəkkəb fikirlərin ifadəsindəki sadəlik fərdi üslubi keyfiyyətdir, poetik intensivlikdir.

Mahirə Nağıqızının şeirləri elmi təfəkkürlə bədii ifadənin sintezini ortaya qoyur. Onun dilində həm gündəlik danışıq üslubu, folklor elementləri, xalq danışığı və həm də elmi, pedaqoji terminlər yer alır, tərbiyəvi əhəmiyyətli bu şeirlər nəsihətnamələri xatırladır.

*Sözü atsan, yerdə qalmaz, yalan deyil.*
*Baş açmayan, yüz tərif et, alan deyil.*
*Qanan niyə borclusudur qanmayanın,*
*Kim bilmirsə, alimsə də inanmayın.*

*Sırğa elə sözlərimi, vaxtla sına,*
*Huşyar olan getməz namərd qapısına.*
*Sənət uca, sənətsiz bir nəfər görsən,*
*Həsədlə yox, şəfqət ilə bax ona sən* [Nağıqızı, 2025:93].

və s. bu kimi nümunələrdə oxuculara, xüsusilə də gənc nəslə bir ana kimi öyüd-nəsihət ünvanlayan Mahirə Nağıqızı artıq bir ana, bir pedaqoq kimi çıxış edir.

Mahirə Nağıqızının şeirlərində metaforik zənginlik var: "ləpə saçlar", "qağayı könül", "gedib qayıtmayan gəmilər kimi" və s. Bu obrazların həm vizual təsir gücü yüksəkdir, həm də duyğunun dolğun ifadəsinə xidmət edir.

*O günü sən qol götürüb oynadın,*
*Baxdım füsun misalıdır əllərin.*
*İnan, vallah, baxmaq ilə doymadım,*
*Sanki mələk qanadıdır əllərin* [Nağıqızı, 2025:46].

Bəndin sonunda verilmiş bənzətmə – əllərin mələk qanadına bənzədilməsində xüsusi bir orijinallıq var. Bənzətmənin tərəfləri qeyri-adidir.

Sözsüz ki, bu cür yeni metaforik ifadələrin yaradılması şairdən yüksək ustalıq tələb edir.

Belə obrazlı, simvollu dil şairin oxucu ilə emosional körpü yaratmasına imkan verir. Həmçinin bu obrazlar milli-mənəvi kodlarla da zəngindir, yerli (folklor, dialektik sözlər) komponentlər şeirin içərisində dirçəlir.

İctimai-əxlaqi istiqamət şairi yalnız emosional şair deyil, həm də vətənpərvər, milli, vicdanlı ziyalı kimi təqdim edir. Folklor tərkibi və dialekt sözlərinin istifadə edilməsi şeirə yerli milli kolorit verir. Ümid edirik ki, Mahirə Nağıqızının bədii yaradıcılığı bundan sonra müxtəlif səpkili dilçilik və ədəbiyyatşünaslıq tədqiqatlarının mövzusu olacaq.

## ƏDƏBİYYAT/REFERENCES

1. Nağıqızı, M. (2025). Anamın kitabı. − Bakı: ADPU nəşriyyatı. − 215 s.
2. Nağıqızı, M. (2021). Yanından keçmə dağların. − Bakı: ADPU nəşriyyatı. − 312 s.
3. Hüseynova, M. (2022). Sözün və əməlin yaratdığı tarix. − Bakı: ADPU nəşriyyatı. − 407 s.
4. Hüseynova, M. (2013). Azərbaycan poeziyasında “Dağ” obrazı. − Bakı: “Vətən” nəşriyyatı. − 298 s.
5. Hüseynova, M. (2015). Aşıq və el şairlərinin fonopoetikası (monoqrafiya). − Bakı: ADPU. − 303 s.
6. https://az.wikipedia.org/wiki/Mahir%C9%99_H%C3%BCseynova
7. https://azertag.az/xeber/Mahire_Nagiqizinin_edebi_poetik_dunyasi-20

**Məqalə tarixçəsi**
*Daxil olub* *28.09.2025*
*Qəbul edilib* *09.10.2025*
*Nəşrə tövsiyə edib* *Razim Məmmədov*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*